(1) Staatsangehörige eines Vertragsstaats dürfen im anderen Vertragsstaat keiner Besteuerung oder damit zusammenhängenden Verpflichtung unterworfen werden, die anders oder belastender ist als die Besteuerung und die damit zusammenhängenden Verpflichtungen, denen Staatsangehörige des anderen Staates unter gleichen Verhältnissen, insbesondere hinsichtlich der Ansässigkeit, unterworfen sind oder unterworfen werden können. Diese Bestimmung gilt ungeachtet des Artikels 1 auch für Personen, die in keinem Vertragsstaat ansässig sind.

(2) Staatenlose, die in einem Vertragsstaat ansässig sind, dürfen in keinem Vertragsstaat einer Besteuerung oder damit zusammenhängenden Verpflichtung unterworfen werden, die anders oder belastender ist als die Besteuerung und die damit zusammenhängenden Verpflichtungen, denen Staatsangehörige des betreffenden Staates unter gleichen Verhältnissen, insbesondere hinsichtlich der Ansässigkeit, unterworfen sind oder unterworfen werden können.

(3) Die Besteuerung einer Betriebstätte, die ein Unternehmen eines Vertragsstaats im anderen Vertragsstaat hat, darf im anderen Staat nicht ungünstiger sein als die Besteuerung von Unternehmen des anderen Staates, die die gleiche Tätigkeit ausüben. Diese Bestimmung ist nicht so auszulegen, als verpflichte sie einen Vertragsstaat, den im anderen Vertragsstaat ansässigen Personen Steuerfreibeträge, -vergünstigungen und -ermäßigungen auf Grund des Personenstandes oder der Familienlasten zu gewähren, die er seinen ansässigen Personen gewährt.

(4) Sofern nicht Artikel 9 Absatz 1, Artikel 11 Absatz 7 oder Artikel 12 Absatz 6 anzuwenden ist, sind Zinsen, Lizenzgebühren und andere Entgelte, die ein Unternehmen eines Vertragsstaats an eine im anderen Vertragsstaat ansässige Person zahlt, bei der Ermittlung der steuerpflichtigen Gewinne dieses Unternehmens unter den gleichen Bedingungen wie Zahlungen an eine im erstgenannten Staat ansässige Person zum Abzug zuzulassen. Dementsprechend sind Schulden, die ein Unternehmen eines Vertragsstaats gegenüber einer im anderen Vertragsstaat ansässigen Person hat, bei der Ermittlung des steuerpflichtigen Vermögens dieses Unternehmens unter den gleichen Bedingungen wie Schulden gegenüber einer im erstgenannten Staat ansässigen Person zum Abzug zuzulassen.

(5) Unternehmen eines Vertragsstaats, deren Kapital ganz oder teilweise unmittelbar oder mittelbar einer im anderen Vertragsstaat ansässigen Person oder mehreren solchen Personen gehört oder ihrer Kontrolle unterliegt, dürfen im erstgenannten Staat keiner Besteuerung oder damit zusammenhängenden Verpflichtung unterworfen werden, die anders oder belastender ist als die Besteuerung und die damit zusammenhängenden Verpflichtungen, denen andere ähnliche Unternehmen des erstgenannten Staates unterworfen sind oder unterworfen werden können.

(6) Dieser Artikel gilt ungeachtet des Artikels 2 für Steuern jeder Art und Bezeichnung.

Artikel 25

Verständigungsverfahren

(1) Ist eine Person der Auffassung, dass Maßnahmen eines Vertragsstaats oder beider Vertragsstaaten für sie zu einer Besteuerung führen oder führen werden, die diesem Abkommen nicht entspricht, so kann sie unbeschadet der nach dem innerstaatlichen Recht dieser Staaten vorgesehenen Rechtsmittel ihren Fall der zuständigen Behörde des Vertragsstaats, in dem sie ansässig ist, oder, sofern ihr Fall von Artikel 24 Absatz 1 erfasst wird, der zuständigen Behörde des Vertragsstaats unterbreiten, dessen Staatsangehöriger sie ist. Der Fall muss innerhalb von drei Jahren nach der ersten Mitteilung der Maßnahme unterbreitet werden, die zu einer dem Abkommen nicht entsprechenden Besteuerung führt.

(2) Hält die zuständige Behörde die Einwendung für begründet und ist sie selbst nicht in der Lage, eine befriedigende Lösung herbeizuführen, so wird sie sich bemühen, den Fall durch Verständigung mit der zuständigen Behörde des anderen Vertragsstaats so zu regeln, dass eine dem Abkommen nicht entsprechende Besteuerung vermieden wird. Die Verständigungsregelung ist ungeachtet der Fristen des innerstaatlichen Rechts der Vertragsstaaten durchzuführen.

(3) Die zuständigen Behörden der Vertragsstaaten werden sich bemühen, Schwierigkeiten oder Zweifel, die bei der Auslegung oder Anwendung des Abkommens entstehen, in gegenseitigem Einver-

nehmen zu beseitigen. Sie können auch gemeinsam darüber beraten, wie eine Doppelbesteuerung in Fällen vermieden werden kann, die im Abkommen nicht behandelt sind.

(4) Die zuständigen Behörden der Vertragsstaaten können zur Herbeiführung einer Einigung im Sinne der vorstehenden Absätze unmittelbar miteinander verkehren.

(5) Kann nach Durchführung des in den Absätzen 1 bis 4 genannten Verfahrens eine Meinungsverschiedenheit in Bezug auf die Auslegung oder die Anwendung des Abkommens in einem bestimmten Fall von den zuständigen Behörden nicht in einem Verständigungsverfahren beseitigt werden, so kann der Fall bei Zustimmung beider zuständigen Behörden nach einem international anerkannten Verfahren einvernehmlich gelöst werden. Dieses Verfahren wird zwischen den zuständigen Behörden der Vertragsstaaten vereinbart.

Artikel 26

Informationsaustausch

(1) Die zuständigen Behörden der Vertragsstaaten tauschen die Informationen aus, die zur Durchführung dieses Abkommens erforderlich sind. Alle Informationen, die ein Vertragsstaat erhalten hat, sind ebenso geheim zu halten wie die auf Grund des innerstaatlichen Rechts dieses Staates beschafften Informationen und dürfen nur den Personen oder Behörden (einschließlich der Gerichte und der Verwaltungsbehörden) zugänglich gemacht werden, die mit der Veranlagung oder Erhebung, der Vollstreckung oder Strafverfolgung oder mit der Entscheidung von Rechtsmitteln hinsichtlich der unter das Abkommen fallenden Steuern befasst sind. Diese Personen oder Behörden dürfen die Informationen nur für diese Zwecke verwenden. Sie dürfen die Informationen in einem öffentlichen Gerichtsverfahren oder in einer Gerichtsentscheidung offen legen.

(2) Absatz 1 ist nicht so auszulegen, als verpflichte er einen Vertragsstaat,

a) Verwaltungsmaßnahmen durchzuführen, die von den Gesetzen und der Verwaltungspraxis dieses oder des anderen Vertragsstaats abweichen;
b) Informationen zu erteilen, die nach den Gesetzen oder im üblichen Verwaltungsverfahren dieses oder des anderen Vertragsstaats nicht beschafft werden können;
c) Informationen zu erteilen, die ein Handels-, Industrie-, Gewerbe- oder Berufsgeheimnis oder ein Geschäftsverfahren preisgeben würden oder deren Erteilung dem Ordre public widerspräche.

Artikel 27

Mitglieder diplomatischer Missionen und konsularischer Vertretungen

Dieses Abkommen berührt nicht die steuerlichen Vorrechte, die den Mitgliedern diplomatischer Missionen und konsularischer Vertretungen nach den allgemeinen Regeln des Völkerrechts oder auf Grund besonderer Übereinkünfte zustehen.

Artikel 28

Inkrafttreten

(1) Jeder der Vertragsstaaten teilt dem anderen Staat den Abschluss des nach innerstaatlichem Recht für das Inkrafttreten des Abkommens erforderlichen Verfahrens auf diplomatischem Weg mit.

(2) Das Abkommen tritt dreißig Tage nach dem Tag in Kraft, an dem die letzte der in Absatz 1 genannten Mitteilungen einlangt und findet sodann Anwendung:

a) in Bezug auf die an der Quelle erhobenen Steuern für Beträge, die am oder nach dem ersten Jänner des Jahres gezahlt oder gutgeschrieben werden, das dem Jahr folgt, in dem das Abkommen in Kraft tritt; und
b) in Bezug auf die übrigen Steuern für Steuern, die vom Einkommen und vom Vermögen für Steuerzeiträume erhoben werden, die am oder nach dem ersten Jänner des Jahres beginnen, das dem Jahr folgt, in dem das Abkommen in Kraft tritt.

Artikel 29

Kündigung

Dieses Abkommen bleibt in Kraft, solange es nicht von einem Vertragsstaat gekündigt wird. Jeder Vertragsstaat kann es mindestens sechs Monate vor dem Ende jeden Kalenderjahres schriftlich auf diplomatischem Weg kündigen. In diesem Fall findet das Abkommen nicht mehr Anwendung:

a) in Bezug auf die an der Quelle erhobenen Steuern für Beträge, die am oder nach dem ersten Jänner des Jahres gezahlt oder gutgeschrieben werden, das dem Jahr folgt, in dem das Abkommen gekündigt wird; und
b) in Bezug auf die übrigen Steuern für Steuern, die vom Einkommen und vom Vermögen für Steuerzeiträume erhoben werden, die am oder nach dem ersten Jänner des Jahres beginnen, das dem Jahr folgt, in dem das Abkommen gekündigt wird.

ZU URKUND DESSEN haben die hiezu gehörig Bevollmächtigten der beiden Vertragsstaaten dieses Abkommen unterzeichnet.

GESCHEHEN zu Wien, am 4. Juli 2000, in zweifacher Ausfertigung, jede in deutscher, aserbaidschanischer und englischer Sprache, wobei jeder Text gleichermaßen authentisch ist. Im Falle einer Abweichung zwischen den Texten geht der englische Text vor.

Für die Regierung der Republik Österreich:

Ferrero-Waldner

Für die Regierung der Republik Aserbaidschan:

Guliyev

PROTOKOLL

Im Zeitpunkt der Unterzeichnung des Abkommens zwischen der Regierung der Republik Österreich und der Regierung der Republik Aserbaidschan zur Vermeidung der Doppelbesteuerung und zur Verhinderung der Steuerumgehung auf dem Gebiete der Steuern vom Einkommen und vom Vermögen sind die Unterzeichneten übereingekommen, dass die folgenden Bestimmungen einen integrierenden Bestandteil des Abkommens bilden:

Auslegung des Abkommens

Es gilt als vereinbart, dass den Abkommensbestimmungen, die nach den entsprechenden Bestimmungen des OECD-Musterabkommens auf dem Gebiete der Steuern vom Einkommen und vom Vermögen oder dem Musterabkommen der Vereinten Nationen zwischen entwickelten Ländern und Entwicklungsländern abgefasst sind, allgemein dieselbe Bedeutung zukommt, die in den OECD-Kommentaren oder den Kommentaren der Vereinten Nationen dazu dargelegt wird. Die Vereinbarung im vorstehenden Satz gilt nicht hinsichtlich aller gegenteiligen Auslegungen, auf die sich die zuständigen Behörden nach Inkrafttreten des Abkommens geeinigt haben. Die Kommentare – die von Zeit zu Zeit überarbeitet werden können – stellen eine Auslegungshilfe dar. Im Fall einer unterschiedlicher Auslegung in den Kommentaren der OECD und der Vereinten Nationen wäre, falls erforderlich, eine einheitliche Auslegung im gegenseitigen Einvernehmen gemäß Artikel 25 zu suchen.

Zu Artikel 3 Absatz 1:

In Bezug auf Aserbaidschan gilt eine Personengesellschaft oder ein Joint Venture, die nach dem in Aserbaidschan geltenden Recht errichtet worden sind und die nach aserbaidschanischem Recht als Steuersubjekt behandelt werden, als Person im Sinne dieses Abkommens.

Zu Artikel 7:

In Österreich umfasst der in diesem Artikel Verwendete Ausdruck „Gewinne“ Gewinne eines Gesellschafters aus seiner Beteiligung an einer Personengesellschaft und einer anderen steuerlich gleichbehandelten Personenvereinigung und aus der Beteiligung an einer stillen Gesellschaft des österreichischen Rechts.

Zu Artikel 11:

In Österreich gilt Artikel 11 Absatz 4 lit. a auch für Darlehen, die durch die Oesterreichische Kontrollbank AG gewährt werden oder die mit einer Garantie im Wege der Oesterreichischen Kontrollbank AG als Bevollmächtigte der Republik Österreich ausgestattet sind.

ZU URKUND DESSEN haben die hiezu gehörig Bevollmächtigten der beiden Vertragsstaaten dieses Protokoll unterzeichnet.

GESCHEHEN zu Wien, am 4. Juli 2000, in zweifacher Ausfertigung, jede in deutscher, aserbaidschanischer und englischer Sprache, wobei jeder Text gleichermaßen authentisch ist. Im Falle einer Abweichung zwischen den Texten geht der englische Text vor.

Für die Regierung der Republik Österreich:

Ferrero-Waldner

Für die Regierung der Republik Aserbaidschan:

Guliyev

AVSTRİYA RESPUBLİKASI HÖKUMƏTİ İLƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA İKİQAT VERGİYƏ CƏLB ETMƏYƏ YOL VERİLMƏMƏSİ, GƏLİR VƏ ƏMLAK VERGİLƏRİNİN ÖDƏNİLMƏSİNDƏN YAYINMANIN QARŞISININ ALINMASI HAQQINDA

K O N V E N S İ Y A

Avstriya Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti ikiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlir və əmlak vergilərinin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya bağlamaq məqsədi ilə aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1
Konvensiyanın şamil edildiyi şəxslər

1) Bu Konvensiya Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə şamil edilir.

Maddə 2
Konvensiyanın şamil edildiyi vergilər

1) Bu Konvensiya, vergiqoyma üsulundan asılı olmayaraq, Razılığa gələn Dövlət yaxud onun inzibati-ərazi bölmələri və ya yerli hakimiyyət orqanları tərəfindən gəlir və əmlaka görə tutulan vergilərə tətbiq olunur.

2) Gəlirə və əmlaka görə vergilərə - gəlirin ümumi məbləğindən, əmlakın ümumi dəyərindən, yaxud onların ayrı-ayrı ünsürlərindən, o cümlədən, daşınar və daşınmaz əmlakın özgəninkiləşdirilməsindən gəlirlər, müəssisələrin ödədikləri əmək haqqının yaxud maaşın ümumi məbləğindən, həmçinin əmlakın dəyərinin artırılmasından əldə olunmuş gəlirdən tutulan vergilər aiddir.

3) Konvensiya, xüsusilə aşağıdakı mövcud vergilərə şamil edilir:

a) Avstriyada:

(i) gəlir vergisi;

(ii) korporativ vergi;

(iii) torpaq vergisi;

(iv) kənd və meşə təsərrüfatı müəssisələrindən tutulan vergilər; və

(v) boş torpaq sahələrinin dəyərinə görə tutulan vergilər

(bundan sonra "Avstriya vergiləri" adlandırılacaq);

b) Azərbaycanda:

(i) hüquqi şəxslərin mənfəətindən tutulan vergi;

(ii) fiziki şəxslərdən gəlir vergisi;

(iii) əmlak vergisi; və

(iv) torpaq vergisi

(bundan sonra "Azərbaycan vergiləri" adlandırılacaq).

4) Bu Konvensiya, onun imzalandığı tarixdən sonra mövcud vergilərə əlavə olaraq, yaxud onların əvəzinə tutulan oxşar və ya mahiyyətcə eyni vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları onların vergi qanunvericiliyində baş verən hər bir əhəmiyyətli dəyişiklik barədə bir-birinə mə'lumat verməlidirlər.

Maddə 3
Ümumi təriflər

1) Kontekstdə başqa mə'na nəzərdə tutulmamışdırsa, bu Konvensiyanın məqsədləri üçün aşağıdakı terminlər qəbul olunur:

a) «Azərbaycan» termini yerin təki, dənizin dibi və təbii sərvətlərə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq olunduğu Azərbaycan Respublikasının ərazisi (Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektoru və Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla), habelə beynəlxalq hüquqa və Azərbaycan Respublikasının

qanunvericiliyinə uyğun olaraq müəyyən edilən və gələcəkdə müəyyən edilə bilən Azərbaycan Respublikasının ərazisi deməkdir;

b) "Avstriya" termini - Avstriya Respublikasının ərazisi deməkdir;

ç) "şəxs" termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birliklərini ifadə edir;

d) "milli şəxs" termini:

(i) Razılığa gələn Dövlətin vətəndaşı olan istənilən fiziki şəxsi;

(ii) Razılığa gələn Dövlətin mövcud qanunvericiliyinə əsasən müvafiq status almış istənilən hüquqi şəxsi, şərikliyi və yaxud assossiasıyanı bildirir;

e) "Razılığa gələn Dövlət" və "Razılığa gələn digər Dövlət" terminləri - kontekstdən asılı olaraq, Avstriya və ya Azərbaycanı bildirir;

f) "Razılığa gələn Dövlətin müəssisəsi" və "Razılığa gələn digər Dövlətin müəsisəsi" terminləri - müvafiq olaraq, *Razılığa gələn Dövlətin rezidenti tərəfindən* idarə olunan müəssisəni və Razılığa gələn digər Dövlətin rezidenti tərəfindən idarə olunan müəssisəni bildirir;

g) "şirkət" termini - vergiqoyma məqsədləri üçün korporativ birlik kimi nəzərdən keçirilən istənilən korporativ birliyi yaxud təşkilatı bildirir;

h) "beynəlxalq daşıma" termini - dəniz və ya hava gəmisinin Razılığa gələn digər Dövlətin məntəqələri arasında istismar edilməsi halları istisna olmaqla, Razılığa gələn Dövlətin rezidenti olan müəssisə tərəfindən dəniz yaxud hava gəmiləri vasitəsilə yerinə yetirilən bütün daşımaları ifadə edir;

i) "səlahiyyətli orqan" termini:

(i) Avstriya Respublikasında - Federal Maliyyə Naziri yaxud onun səlahiyyətli nümayəndəsi;

(ii) Azərbaycan Respublikasında - Maliyyə Nazirliyi və Vergilər Nazirliyi deməkdir;

2) Razılığa gələn Dövlət tərəfindən bu Konvensiyanın istənilən vaxt tətbiqi zamanı, kontekstdə tələb olunan digər hallar istisna olmaqla, burada izahı verilməyən hər hansı termin Konvensiyanın tətbiq olunduğu vergilərin məqsədləri üçün həmin vaxt həmin Dövlətin qanunvericiliyində nəzərdə tutulan mə'nanı daşıyır və həmin Dövlətin qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq hər hansı bir mə'na həmin Dövlətin digər qanunlarına müvafiq surətdə verilən mə'nadan üstün tutulur.

Maddə 4
Rezident

1) Bu Konvensiyanın məqsədləri üçün "Razılığa gələn Dövlətin rezidenti" termini bu Dövlətin qanunvericiliyi əsasında yaşayış yerinə, daimi olduğu yerinə, qeydiyyat yerinə, hüquqi şəxs hüququnun verildiyi yerə, idarəetmə yerinə yaxud digər oxşar meyarlara əsasən orada vergiyə cəlb olunan şəxsi və eləcə də həmin Dövlət və ya onun hər hansı inzibati-ərazi bölməsi və ya yerli hakimiyyət orqanını bildirilir. Bununla belə, bu termin yalnız Razılığa gələn Dövlətdəki mənbələrdən yaxud orada yerləşən əmlakdan gəlir əldə etməsi ilə bağlı həmin Dövlətdə vergiyə cəlb olunan şəxsi əhatə etmir.

2) Bu Maddənin 1-ci bəndinin müddəalarına müvafiq olaraq, fiziki şəxs Razılığa gələn hər iki Dövlətin rezidentidirsə, onun statusu aşağıdakı qaydada müəyyənləşdirilir:

a) əgər Razılığa gələn bir Dövlətdə onun daimi yaşayış yeri varsa, o yalnız həmin Dövlətin rezidenti hesab olunur. Əgər onun hər iki Razılığa gələn Dövlətdə daimi yaşayış yeri varsa, bu halda o, yalnız daha sıx şəxsi və iqtisadi əlaqələrə malik olduğu (həyati mənafelərin mərkəzi) Razılığa gələn Dövlətin rezidenti hesab olunur;

b) əgər onun həyati mənafelərin mərkəzinin hansı Dövlətdə olduğunu müəyyən etmək qeyri-mümkündürsə, yaxud bu Dövlətlərin heç birində daimi yaşayış yeri yoxdursa, o yalnız adətən yaşadığı Dövlətin rezidenti hesab olunur;

c) əgər o, adətən hər iki Dövlətdə yaşayırsa və ya adətən onlardan heç birində yaşamırsa, o, yalnız vətəndaşı olduğu Dövlətin rezidenti hesab olunur;

d) əgər o, hər iki Razılığa gələn Dövlətin vətəndaşıdırsa və ya onlardan heç birinin vətəndaşı deyilsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu məsələni qarşılıqlı razılaşma yolu ilə həll etməyə sə'y göstərirlər.

3) Əgər fiziki şəxs olmayan şəxs bu Maddənin 1-ci bəndinin müddəalarına görə hər iki Razılığa gələn Dövlətin rezidentidirsə, o, yalnız qeydiyyatdan keçdiyi və faktiki rəhbərliyin yerləşdiyi Dövlətin rezidenti hesab edilir. Əgər qeydiyyat yeri və faktiki rəhbərliyin yerləşdiyi yer eyni Razılığa gələn Dövlətdə deyilsə, onda Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma əsasında həll etməyə sə'y göstərirlər.

Maddə 5
Daimi nümayəndəlik

1) Bu Konvensiyanın məqsədləri üçün "daimi nümayəndəlik" termini müəssisənin Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini tamamilə və ya qismən həyata keçirdiyi daimi fəaliyyət yerini bildirir.

2) "Daimi nümayəndəlik" terminə xüsusilə aşağıdakılar daxildir:

a) idarəetmə yeri;

b) filial;

c) ofis;

d) fabrik;

e) e'malatxana;

f) təbii ehtiyatların kəşfiyyatı üçün istifadə edilən qurğu, tikili və ya gəmi yaxud hər hansı başqa yer;

g) yataq, neft yaxud qaz quyusu, karxana, qurğu və ya tikili yaxud təbii ehtiyatların işləndiyi və hasil olunduğu hər hansı başqa yer; və,

h) tikinti meydançası, quraşdırma və ya montaj obyekti, bir şərtlə ki, o, 12 aydan artıq müddət ərzində davam etsin.

3) Məsləhət xidmətləri də daxil olmaqla Razılığa gələn Dövlətin müəssisəsinin öz işçiləri və ya bu məqsədlər üçün müəssisə tərəfindən işə götürülmüş digər işçi heyəti vasitəsilə xidmətlərin göstərilməsi nəticəsində yalnız həmin Dövlət daxilində bu qəbildən olan işlərin (eyni və ya əlaqədar layihə üçün) altı aydan artıq bir müddət ərzində davam etməsi halda nümayəndəlik təyin olunur.

4) Bu maddənin əvvəlki müddəalarına baxmayaraq, "daimi nümayəndəlik" terminə aşağıdakılar aid edilmir:

a) müəssisəyə məxsus olan mal və mə'mulat ehtiyatlarını yalnız saxlamaq, nümayiş etdirmək yaxud göndərmək məqsədləri üçün obyektlərdən istifadə olunması;

b) müəssisəyə mənsub olan mal yaxud mə'mulat ehtiyatlarının yalnız saxlanılmaq, nümayiş etdirilmək və sonradan göndərilmək məqsədi ilə saxlanılması;

c) müəssisəyə mənsub olan mal və ya mə'mulat ehtiyatlarının yalnız başqa müəssisə tərəfindən yenidən e'mal edilməsi məqsədi ilə saxlanılması;

d) daimi fəaliyyət yerinin yalnız müəssisə üçün mal və ya mə'mulatların satın alınması yaxud informasiya toplanılması məqsədi ilə saxlanılması;

e) daimi fəaliyyət yerinin müəssisə üçün yalnız hazırlıq yaxud yardımçı xarakterli istənilən digər işlərin yerinə yetirilməsi məqsədi ilə saxlanılması;

f) daimi fəaliyyət yerinin a) - e) yarımbəndlərində sadalanmış fəaliyyət növlərinin istənilən kombinasiyada həyata keçirilməsi üçün saxlanılması - bir şərtlə ki, bu kombinasiya nəticəsində meydana çıxan daimi yerin məcmu fəaliyyəti hazırlıq yaxud köməkçi xarakter daşısın.

5) 1-ci və 2-ci bəndin müddəalarına baxmayaraq, əgər 6-cı bəndin şamil edildiyi müstəqil statuslu agentdən fərqli şəxs hər hansı bir müəssisənin adından fəaliyyət göstərirsə,

və Razılığa gələn Dövlətdə həmin müəssisənin adından müqavilələr bağlamaq səlahiyyətinə malikdirsə və adətən bu səlahiyyətdən istifadə edirsə, həmin müəssisə bu şəxsin müəssisə üçün həyata keçirdiyi hər hansı fəaliyyətlə bağlı həmin Dövlətdə daimi nümayəndəliyə malik olan hesab edilir (bu şərtlə ki, həmin şəxsin fəaliyyəti 4-cü bənddə nəzərdə tutulmuş və həmin bəndin müddəalarına görə, daimi fəaliyyət yeri vasitəsilə həyata keçirilərkən daimi nümayəndəlik yaratmayan fəaliyyətlə məhdudlaşmasın).

6) Müəsisə Razılığa gələn digər Dövlətdə broker, ümumi komisyon agenti, yaxud müstəqil statusu olan hər hansı agent vasitəsilə sadəcə olaraq biznes həyata keçtdiyinə və bu şəxslər fəaliyyətlərini adi qaydada yerinə yetirdiyinə görə, Razılığa gələn digər Dövlətdə *daimi nümayəndiliyi olan bir müəssisə hesab edilmir. Lakin bu agentin fəaliyyəti* bütövlükdə yaxud əsasən bütövlükdə həmin müəssisə üçün həyata keçirilirsə, əməliyyatların agentlə müəssisə arasında müstəqil tərəflər arasında razılaşdırılmış şərtlərə (müstəqillik prinsipi) müvafiq surətdə aparıldığı hallar istisna edilməklə həmin agent bu maddənin məqsədlərinə uyğun olaraq müstəqil statuslu agent hesab edilmir.

7) Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan başqa bir şirkətə nəzarət etməsi və ya onun nəzarəti altında olması yaxud həmin Dövlətdə sahibkarlıq fəaliyyətini həyata keçirməsi (daimi nümayəndəlik vasitəsilə yaxud başqa tərzdə) faktı bu şirkətlərdən birini digərinin daimi nümayəndəliyinə çevirmir.

Maddə 6
Daşınmaz əmlakdan gəlirlər

1) Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə etdiyi (kənd və meşə təsərrüfatından gəlirlər də daxil olmaqla) gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2) "Daşınmaz əmlak" termini göstərilən əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyi ilə müəyyən edilmiş mə'naya malikdir. Bütün hallarda bu termin daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə ümumi qanunvericilik müddəalarının tətbiq edildiyi hüquqları, daşınmaz əmlakın uzufruktunu, mineral ehtiyatların, mənbələrin və digər faydalı

qazıntıların işlənməsi yaxud işlənmə hüququna görə dəyişkən və ya təsbit olunmuş kompensasiya şəklində ödənişləri əhatə edir. Gəmilər, qayıqlar, təyyarələr daşınmaz əmlak hesab edilmir.

3) Bu Maddənin 1-ci bəndinin müddəaları daşınmaz əmlakın bilavasitə istifadəsindən, icarəyə verilməsindən yaxud hər hansı digər formada istifadəsindən əldə olunmuş gəlirlərə tətbiq edilir.

4) Bu Maddənin 1-ci və 3-cü bəndlərinin müddəaları müəssisələrin daşınmaz əmlakdan əldə etdiyi gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə olunan daşınmaz əmlakdan əldə olunan gəlirlərə də şamil edilir.

Maddə 7
Sahibkarlıq fəaliyyətindən əldə olunan mənfəət

1) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyəti göstərmirsə, onun sahibkarlıq fəaliyyətindən əldə etdiyi mənfəət yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb olunur. Əgər müəssisə sahibkarlıq fəaliyyətini yuxarıda göstərilən tərzdə həyata keçirirsə, bu halda onun mənfəətinin yalnız bu daimi nümayəndəliyə aid olan hissəsi Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2) Bu Maddənin 3-cü bəndinin müddəalarına nəzərə alınmaqla, Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin ərazisində yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyəti göstərirsə, Razılığa gələn Dövlətlərin hər birində bu daimi nümayəndəliyin mənfəətinə onun ayrıca və müstəqil surətdə, bənzər şəraitdə eyni fəaliyyət növü ilə məşğul olan müəsəsisə kimi işləyəcəyi və daimi nümayəndəliyi olduğu müəssisədən heç bir asılılığı olmadan fəaliyyət göstərəcəyi halda əldə edə biləcəyi mənfəətə aid edilir.

3) Daimi nümayəndəliyin mənfəəti müəyyənləşdirilərkən, Razılığa gələn Dövlətdə yaxud onun hüdudlarından kənarda çəkilməsindən asılı olmayaraq, daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin, o cümlədən, bu dövlətin daxili qanunvericiliyi ilə

müəyyənləşdirilmiş normalar çərçivəsində idarəetmə və ümumi inzibati məsrəflərin çıxılmasına yol verilir.

4) Əgər Razılığa gələn Dövlətin qanunvericiliyinə əsasən daimi nümayəndəliyə aid olan mənfəət adətən müəssisənin mənfəətinin ümumi məbləğinin öz bölmələri arasında proporsional qaydada bölgüsü əsasında müəyyənləşdirilirsə, bu Maddənin 2-ci bəndinin müddəaları vergiyə cəlb olunan mənfəəti bu cür bölgü əsasında müəyyənləşdirməkdə Razılığa gələn Dövlətə heç bir maneə yaratmır. Seçilmiş bölgü metodu bu Maddədə nəzərdə tutulan prinsiplərə müvafiq nəticələr verməlidir.

5) Öz müəssisəsi üçün mal və mə'mulat aldığına görə daimi nümayəndəliyə heç bir mənfəət hesablanmır.

6) Yuxarıda qeyd olunan bəndlərin məqsədlərinə uyğun olaraq daimi nümayəndəliyə aid edilən gəlirlər kifayət qədər əsaslı səbəblər olan əks hallar istisna edilməklə hər il eyni metodla müəyyənləşdirilir.

7) Əgər mənfəətə bu Konvensiyanın digər Maddələrində ayrıca nəzərdə tutulmuş gəlir növləri daxildirsə, bu Maddənin müddəaları həmin Maddələrin müddəalarına tə'sir göstərmir.

Maddə 8
Dəniz və hava nəqliyyatı

1) Razılığa gələn Dövlətin müəssisəsinin dəniz yaxud hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə etdiyi mənfəət yalnız həmin Razılığa gələn Dövlətdə vergiyə cəlb olunur.

2) Bu Maddənin məqsədləri üçün dəniz yaxud hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə olunan mənfəətə aşağıdakılar daxildir:

a) dəniz və hava gəmilərinin beynəlxalq daşımalar məqsədilə ekipajsız icarəyə verilməsindən gəlirlər; və

b) dəniz və hava gəmilərinin beynəlxalq daşımalarda istismar olunmasında konteynerların istifadə olunması, saxlanılması yaxud icarəyə verilməsi təsadüfi xarakter daşıyan hallarda beynəlxalq daşımalar zamanı malların, mə'mulatların daşınmasında istifadə edilən konteynerlərin (o cümlədən, konteynerlərin daşınması üçün traylerlər və əlaqədar avadanlıqlar) istifadəsi, saxlanılması və ya icarəyə verilməsindən gəlirlər.

3) Bu Maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları nəqliyyat vasitələrinin istismarı ilə bağlı pulda, müştərək müəssisə yaxud beynəlxalq təşkilatda iştirakdan əldə olunan mənfəətə də tətbiq edilir.

Maddə 9
Qohum müəssisələr

1) Əgər:

a) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, nəzarət olunmasında və kapitalında birbaşa və dolayı yolla iştirak edirsə,

və ya,

b) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, nəzarət olunmasında və kapitalında birbaşa yaxud dolayı yolla iştirak edirsə və hər iki halda həmin müəssisələrin qarşılıqlı kommersiya-maliyyə əlaqələrində iki müstəqil müəssisə arasında mövcud ola biləcək münasibətlərdən fərqli şərtlər yaradıldıqda yaxud müəyyənləşdirildikdə, onlardan hər hansına hesablana bilən, lakin bu şərtlərə görə hesablanmamış mənfəət, həmin müəssisənin mənfəətinə daxil edilib, müvafiq surətdə vergiyə cəlb oluna bilər.

2) Əgər Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər Dövlətdə vergiyə cəlb olunmuş mənfəətini daxil edib, müvafiq qaydada vergi qoyarsa və bu tərzdə daxil olunmuş mənfəət bu müəssisələr

arasında müstəqil müəssisələr arasında yarana biləcək əlaqələr zamanı adı birinci çəkilən Dövlətin müəssisəsinə hesablana biləcək mənfəətdirsə, Razılığa gələn digər Dövlət bu mənfəətdən tutulan verginin məbləğində müvafiq düzəlişlər aparmalıdır. Düzəlişlər verilərkən bu Konvensiyanın digər müddəaları nəzərə alınmalı, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları isə zəruri hallarda bir-biri ilə məsləhətləşmələr aparmalıdırlar.

Maddə 10
Dividendlər

1) Razılığa gələn Dövlətin rezidenti olan müəssisə tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividendlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2) Bununla belə, Razılığa gələn Dövlətinin rezidenti olan müəssisə tərəfindən ödənilən bu dividendlər, həmin müəssisənin rezidenti olduğu Dövlətin qanunvericiliyinə uyğun surətdə vergiyə cəlb oluna bilər, lakin dividend alan dividendlərin faktiki sahibi olduğu halda bu cür tutulan verginin məbləği:

a) əgər dividendlərin faktiki sahibi dividendlər ödəyən şirkətin kapitalının bilavasitə ən azı 25 faizinin sahibi olan bir şirkətdirsə və onun iştirak payı 250000 ABŞ dolları və ya hər hansı digər valyutada ona bərabər məbləğdən artıqdırsa, dividentlərin ümumi məbləğinin 5 %-dən;

b) əgər dividendlərin faktiki sahibi dividendlər ödəyən şirkətin kapitalının bilavasitə ən azı 25 faizinin sahibi olan bir şirkətdirsə və onun iştirak payı 100000 ABŞ dolları və ya hər hansı digər valyutada ona bərabər məbləğdən artıqdırsa, dividentlərin ümumi məbləğinin 10 %-dən;

c) bütün digər hallarda isə dividentlərin ümumi məbləğinin 15 %-dən artıq olmamalıdır.

Bu bənd dividendlər ödənilən mənfəətə münasibətdə şirkətin vergiyə cəlb olunmasına tə'sir göstərmir.

3) Bu Maddədə istifadə olunan "dividendlər" termini borc tələbnaməsi olmayan, lakin mənfəətin bölgüsündə iştirak etmək hüququ verən istənilən səhmlərdən və ya başqa hüquqlardan, həmçinin, gəlirləri bölüşdürən şirkətin rezident olduğu Dövlətin qanunvericiliyinə müvafiq olaraq səhmlərdən gəlirlər kimi eyni tərzdə vergiqoymaya cəlb olunan digər korporativ hüquqlardan əldə edilən gəlirləri ifadə edir.

4) Əgər dividendlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olaraq dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyəti göstərirsə yaxud orada yerləşən daimi bazadan müstəqil fərdi xidmətlər göstərirsə və dividendlərin ödənildiyi xoldinq həqiqətən də bu daimi nümayəndəliklə yaxud daimi baza ilə faktiki olaraq əlaqəlidirsə bu Maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları tətbiq edilmir. Bu halda şəraitdən asılı olaraq bu Konvensiyanın 7-ci və 14-cü Maddələrinin müddəaları tətbiq edilir.

5) Razılığa gələn Dövlətin rezidenti olan şirkət Razılığa gələn digər Dövlətdən mənfəət və ya gəlir əldə etdiyi halda, digər Dövlət, dividendlərin həmin digər Dövlətin rezidentinə ödənildiyi və ya dividendlər ödənilən xoldinq həmin digər Dövlətdə yerləşən daimi nümayəndəliyə və ya daimi bazaya aid olduğu hallar istisna edilməklə, şirkətin ödədiyi dividendlər və bölüşdürülməmiş mənfəətdən, hətta bu dividendlərin və ya bölüşdürülməmiş mənfəətin tamimilə və ya qismən həmin digər Dövlətdə yaranan mənfəətə və ya gəlirdən olduğu haldə, vergi tuta bilməz.

Maddə 11
Faizlər

1) Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2) Bununla belə, bu faizlər Razılığa gələn Dövlətin qanunvericiliyinə uyğun olaraq, yarandığı Dövlətdə də vergiyə cəlb oluna bilər, lakin faizləri alan onların faktiki sahibidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin 10 %-dən çox olmamalıdır.

3) Bu Maddədə istifadə olunan "faizlər" termini ipoteka tə'minatından və borcluların mənfəətində iştirak hüququnun sahibliyindən asılı olmayaraq, istənilən borc tələbindən olan gəlirləri, o cümlədən hökumətin qiymətli kağızlarından, istiqrazlardan, yaxud borc öhdəliklərindən, həmin qiymətli kağızlar, istiqrazlar və ya borc öhdəlikləri üzrə mükafatlar və uduşlar daxil olmaqla, əldə olunan gəlirləri ifadə edir. Vaxtında ödənilməmiş məbləğlərə görə tətbiq edilən cərimə sanksiyaları bu maddənin məqsədləri üçün "faiz" sayılmır.

4) 2-ci bəndin müddəalarına baxmayaraq, 1-ci bənddə göstərilən faizlər həmin faizlərin faktiki sahibi rezident olduğu halda yalnız Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər, əgər:

a) faizi ödəyən və ya alan və yaxud borcla əlaqədar yaranan faizi ödəyən, ona zəmanət verən və ya onu tə'min edən Razılığa gələn Dövlətin özüdürsə və ya onun qanuni orqanı, inzibati ərazi bölməsi və ya yerli hakimiyyət orqanı və ya Mərkəzi Bankıdırsa;

b) faiz ödəyənin rezidenti olduğu Razılığa gələn Dövlətin hökuməti tərəfindən təsdiq edilmiş borcla əlaqədar ödənilirsə;

c) faiz Razılığa gələn digər Dövlətin hər hansı bir müəssisəsinə istənilən malların və ya sənaye, kommersiya və ya elm avadanlıqlarının kreditlə satışı nəticəsində yaranmış borcla əlaqədar ödənirsə.

5) Əgər faizlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olaraq, faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirirsə yaxud həmin digər Dövlətdə yerləşən daimi baza vasitəsi ilə müstəqil fərdi xidmətlər göstərirsə və faizlər ödənilən borc tələbnaməsi həqiqətən də bu daimi nümayəndəliyə yaxud daimi bazaya aiddirsə, bu Maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, bu Konvensiyanın 7-ci yaxud 14-cü Maddələrinin müddəaları tətbiq edilir.

6) Əgər faizlərin ödəyicisi Razılığa gələn Dövlətin rezidentidirsə, belə hesab olunur ki, faizlər həmin bu Dövlətdə yaranmışdır. Lakin, faizləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə

yaxud daimi bazaya malikdirsə və həmin daimi nümayəndəliyin yaxud daimi baza ilə bağlı faizlər ödənilən borc yaranırsa və həmin borca görə faizlərin ödənilməsi üzrə xərcləri həmin daimi nümayəndəlik və ya daimi baza çəkirsə, belə hesab edilir ki, faizlər bu daimi nümayəndəliyin yaxud daimi bazanın yerləşdiyi Razılığa gələn Dövlətdə yaranmışdır.

7) Əgər faizlərin ödəyicisi və faizlərin faktiki sahibi arasında yaxud onların hər ikisi ilə istənilən üçüncü şəxs arasında mövcud olan xüsusi münasibətlər səbəbindən borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği, bu münasibətlər olmadığı halda faizlərin ödəyicisi ilə və faktiki sahibi arasında razılaşdırıla bilən məbləğdən artıq olarsa, bu maddənin müddəaları yalnız sonuncu adı çəkilən məbləğə şamil edilir. Bu halda ödənişin artıq hissəsi bu Konvensiyanın digər müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq surətdə vergiyə cəlb edilir.

Maddə 12
Royalti

1) Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən royaltilər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2) Belə royaltilər onların yarandığı Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə uyğun olaraq vergiyə cəlb oluna bilər, lakin həmin gəlirlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, onda tutulan vergi:

a) bu royaltilərin ödənildiyi patent, dizayn və ya model, plan, məxfi formula və ya proses və ya sənaye, kommersiya və ya elmi təcrübələrlə əlaqədar informasiyanın yaşı 3 ildən artıq deyilsə, royaltinin ümumi məbləğinin 5 faizindən;

b) bütün digər hallarda royaltilərin ümumi məbləğinin 10 faizindən çox olmamalıdır.

3) Bu Maddədə istifadə olunan "royalti" termini ədəbiyyat, incəsənət yaxud elm əsərlərinə (o cümlədən, kinematoqrafiya filmləri, radio və televiziya verilişlərində istifadə olunan istənilən filmlər yaxud lent yazıları), istənilən patentə, ticarət markasına, dizayna

yaxud modelə, plana, məxfi düstura yaxud prosesə və ya sənaye, kommersiya yaxud elmi təcrübəyə dair informasiyasıya (know-how) müəllif hüquqlarından istifadəyə və istifadə hüququnun verilməsinə görə əvəzi ödənilən şəklində alınan istənilən ödənişləri ifadə edir.

4) Əgər royaltinin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olaraq, royaltinin yarandığı digər Razılığa gələn Dövlətdə öz daimi nümayəndiliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirirsə yaxud həmin digər Dövlətdə yerləşən daimi baza vasitəsi ilə müstəqil fərdi xidmətlər göstərirsə və barəsində royalti ödənilən hüquqlar yaxud əmlak həqiqətən də bu daimi nümayəndəliyə yaxud bazaya aiddirsə, bu Maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları tətbiq edilmir. Belə halda şəraitdən asılı olaraq, bu Konvensiyanın 7-ci və 14-cü Maddələrinin müddəaları şamil edilir.

5) Əgər royaltinin ödəyicisi Razılığa gələn Dövlətin rezidentidirsə, belə hesab olunur ki, royalti həmin bu Dövlətdə yaranmışdır. Royalti ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmasından asılı olmayaraq, bu Dövlətlərdən birində daimi nümayəndəliyə yaxud daimi bazaya malikdirsə və royalti ödəmək öhdəliyi bu nümayəndəlik yaxud daimi baza ilə əlaqədar meydana çıxmışsa və royaltinin ödənilməsi üzrə xərcləri bu daimi nümayəndəlik yaxud daimi baza çəkirsə, belə hesab olunur ki, royalti daimi nümayəndəliyin yaxud daimi bazanın yerləşdiyi Razılığa gələn Dövlətdə yaranmışdır.

6) Əgər royaltinin ödəyicisi və faktiki sahibi arasında yaxud onlarla istənilən üçüncü şəxs arasında mövcud olan xüsusi münasibətlər səbəbindən royaltinin tətbiqi, hüquq və məlumatı ilə əlaqədar ödənilməli olan məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla bilən royaltinin məbləğindən artıq olarsa, bu Maddənin müddəaları yalnız adı sonuncu çəkilmiş məbləğə şamil edilir. Bu halda ödənişin artıq hissəsi bu Konvensiyanın digər müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq surətdə vergiyə cəlb edilir.

Maddə 13

Əmlakın özgəninkiləşdirilməsindən gəlirlər

1) Bu Konvensiyanın 6-cı Maddəsində müəyyənləşdirilmiş Razılığa gələn Dövlətin rezidentinin digər Dövlətdə yerləşən daşınmaz əmlakının özgəninkiləşdirilməsindən əldə etdiyi gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2) Razılığa gələn Dövlətin rezidentinin təsdiq edilmiş Fond Birjasında kotirovka olunan səhmləri istisna edilməklə, dəyəri və ya dəyərinin çox hissəsi digər Dövlətdə yerləşən bilavasitə və ya bilvasitə daşınmaz əmlakla əlaqədar əldə edilən səhmlərin özgəninkiləşdirilməsi nəticəsində əldə olunan gəlirlər həmin digər dövlətdə vergiyə cəlb edilə bilər.

3) Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsi olan daşınar əmlakın yaxud Razılığa gələn Dövlətin rezidentinin müstəqil şəxsi xidmətlər göstərmək üçün Razılığa gələn digər Dövlətdəki daimi bazanın daşınar əmlakının, o cümlədən belə daimi nümayəndəliyin və ya belə daimi bazanın özgəninkiləşdirilməsindən (ayrılıqda yaxud bütün müəssisə ilə birgə) gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

4) Razılığa gələ Dövlətin rezidenti olan müəssisə tərəfindən beynəlxalq daşımalarda istismar olunan dəniz yaxud hava gəmilərinin, onların istismarı ilə bağlı olan daşınar əmlakın özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər yalnız həmin Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

5) Bu Maddənin 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərində qeyd olunanlar istisna edilməklə istənilən əmlakın özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər yalnız əmlakı özgəninkiləşdirilən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb oluna bilər.

Maddə 14
Müstəqil fərdi xidmətlər

1) Razılığa gələn Dövlətin rezidentinin peşəkar xidmətlər göstərməsindən yaxud müstəqil xarakterli digər fəaliyyətlərindən əldə etdiyi gəlirlər, Razılığa gələn digər Dövlətdə bu fəaliyyəti həyata keçirmək üçün müntəzəm istifadə etdiyi daimi bazaya malik olduğu hallardan başqa, yalnız həmin Razılığa gələn Dövlətdə vergiyə cəlb olunur. Əgər onun belə daimi bazası varsa, gəlirin yalnız göstərilən baza ilə bağlı olan hissəsinin həddində Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2) "Peşəkar xidmətlər" terminə müstəqil elmi, ədəbi, aktyorluq, təhsil yaxud müəllimlik xidmətləri, o cümlədən həkimlərin, vəkillərin, mühəndislərin, arxitektorların, stomatoloqların, mühasiblərin və auditorların müstəqil fəaliyyəti daxildir.

3) Bu Maddənin 1-ci bəndinin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti cari maliyyə ilində başlayan və ya başa çatan istənilən 12 aylıq dövr ərzində ümumilikdə 183 gündən artıq bir müddətdə yaxud müddətlərdə Razılığa gələn digər Dövlətdə olmuşdursa, onun peşəkar xidmətlər göstərməsindən yaxud müstəqil xarakterli digər fəaliyyətdən əldə etdiyi gəlirlər yalnız Razılığa gələn digər Dövlətdə göstərilən xidmətlərə aid olduqda vergilərə cəlb olunur.

Maddə 15
Muzdla görülən şəxsi xidmətlər

1) Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə muzdla işləməsi istisna edilməklə, onun Razılığa gələn Dövlətdə aldığı maaş, əmək haqqı və digər oxşar mükafatlar bu Konvensiyanın 16-cı, 18-ci, 19-cu və 20-ci Maddələrinin müddəaları nəzərə alınmaqla, yalnız həmin Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir. Əgər muzdlu işlər Razılığa gələn digər Dövlətdə yerinə yetirilmişdirsə, alınmış maaş, əmək haqqı və digər oxşar mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2) Bu Maddənin 1-ci bəndinin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə muzdla işləməsi ilə əlaqədar aldığı mükafat aşağıdakı hallarda, yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir əgər:

a) mükafatı alan şəxs cari maliyyə ilində başlayan yaxud başa çatan istənilən 12 aylıq dövrün ümumilikdə 183 günündən çox olmayan bir müddətdə və ya müddətlərdə Razılığa gələn digər Dövlətdə olursa,

b) mükafat Razılığa gələn digər Dövlətin rezidenti olmayan işəgötürən tərəfindən yaxud onun adından ödənilirsə,

c) mükafat verilməsi üzrə xərclər işəgötürənin Razılığa gələn digər Dövlətdəki daimi nümayəndəliyi yaxud daimi bazası tərəfindən çəkilmirsə.

3) Bu Maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti olan müəssisənin tərəfindən beynəlxalq daşımalarda istifadə etdiyi dəniz yaxud hava gəmisinin göyərtəsində muzdla işləməyə görə verilən mükafatlara həmin Dövlətdə vergi qoyula bilər.

Maddə 16
Direktorların qonorarı

Razılığa gələn bir Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin direktorlar şurasının üzvü kimi aldığı qonorarlar və oxşar ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 17
Artistlər və idmançılar

1) Bu sazişin 7-ci, 14-cü və 15-ci Maddələrinin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə incəsənət işçisi, teatr, kino, estrada, radio, televiziya artisti və ya musiqiçisi yaxud idmançı kimi fərdi fəaliyyətindən əldə etdiyi gəlir həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2) Əgər incəsənət işçisinin yaxud idmançının bu sahələrdəki fərdi fəaliyyətindən əldə etdiyi gəlirlər onların özünə deyil, hər hansı başqa bir şəxsə hesablanırsa, həmin gəlirlər bu

Konvensiyanın 7-ci, 14-cü və 15-ci Maddələrinin müddəalarından asılı olmayaraq, incəsənət işçisinin yaxud idmançının fəaliyyətini həyata keçirdiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb oluna bilər.

3) Əgər incəsənət işçisinin yaxud idmançının Razılığa gələn Dövlətdə fəaliyyət göstərməsi Razılığa gələn Dövlətlərdən birinin yaxud hər ikisinin ictimai fondları, inzibati-ərazi bölmələr yaxud yerli hakimiyyət orqanları tərəfindən maliyyələşdirilirsə, bu Maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları həmin fəaliyyətdən əldə olunan gəlirlərə şamil edilmir. Bu halda incəsənət işçisinin yaxud idmançının gəliri yalnız rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb olunur.

Maddə 18
Təqaüdlər

Razılığa gələn Dövlətin Rezidentinə keçmişdə muzdla işləməsi ilə əlaqədar ödənilən təqaüdlər və oxşar mükafatlar bu Konvensiyanın 19-cu Maddəsinin 2-ci bəndinin müddəalarına əməl edilməklə, yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.

Maddə 19
Dövlət qulluğunda olan işçilər

1) a) Razılığa gələn Dövlət, onun ərazi-inzibati bölmələri yaxud yerli hakimiyyət orqanları tərəfindən hər hansı fiziki şəxsə bu Dövlətə, onun ərazi-inzibati bölmələrinə yaxud yerli hakimiyyət orqanlarına göstərdiyi şəxsi qulluğa görə ödənilən, təqaüd olmayan əmək haqqı, maaş və digər oxşar mükafatlar yalnız həmin Razılığa gələn Dövlətdə vergiyə cəlb oluna bilər.

b) lakin qulluq Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs o Dövlətin rezidentidirsə və o:

(i) həmin Dövlətin vətəndaşıdırsa; yaxud

(ii) yalnız qulluq göstərmək üçün həmin Dövlətin rezidentinə çevrilməmişdirsə, bu cür mükafatlara yalnız Razılığa gələn digər Dövlətdə vergi qoyulur.

2) a) Razılığa gələn Dövlət, onun ərazi-inzibati bölməsi yaxud yerli hakimiyyət orqanları tərəfindən və ya onların yaratdıqları fondlardan fiziki şəxsin həmin Dövlətə, onun ərazi-inzibati bölməsinə yaxud yerli hakimiyyət orqanına göstərdiyi xidmətə görə ödənilən istənilən təqaüd yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.

b) fiziki şəxs Razılığa gələn digər Dövlətin rezidenti və vətəndaşı olduğu halda bu təqaüd yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.

3) Bu Konvensiyanın 15-ci, 16-cı, 17-ci və 18-ci Maddələrinin müddəaları Razılığa gələn Dövlətin, onun ərazi-inzibati bölməsi yaxud yerli hakimiyyət orqanının sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan qulluğa görə ödədiyi mükafat və təqaüdlərə şamil olunur.

Maddə 20
Tələbələr

Razılığa gələn Dövlətə gələrkən Razılığa gələn digər Dövlətin rezidenti olan və ya bilavasitə gəlməzdən əvvəl rezident olduğu, adı birinci çəkilən Dövlətdə yalnız təhsil almaq və təcrübə keçmək üçün yaşayan tələbələrin, təcrübəçilərin və ya peşə hazırlığı keçən şəxslərin dolanmaq, təhsil almaq və təcrübə keçmək üçün aldıqları ödənişlərin mənbəyi həmin Dövlətdən kənarda yerləşərsə, onlar həmin Dövlətdə vergiyə cəlb olunmur.

Maddə 21
Digər gəlirlər

1) Razılığa gələn Dövlətin rezidentinin bu Konvensiyanın əvvəlki Maddələrində sadalanmayan gəlir növləri harada yaranmasından asılı olmayaraq yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.

2) Bu Konvensiyanın 6-cı Maddəsinin 2-ci bəndində müəyyənləşdirilən daşınmaz əmlakdan əldə olunan gəlirlər istisna edilməklə, digər gəlirlərə, əgər bu gəlirləri alan şəxs Razılığa gələn Dövlətin rezidenti olub, Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyəti göstərirsə və ya bu Dövlətdə yerləşən daimi bazadan müstəqil fərdi xidmətlər göstərirsə və əldə olunmuş gəlir həqiqətən də bu daimi nümayəndəlik yaxud daimi baza ilə bağlıdırsa, bu Maddənin 1-ci bəndinin müddəaları tətbiq edilmir. Belə halda şəraitdən asılı olaraq, bu Konvensiyanın 7-ci yaxud 14-cü Maddələrinin müddəaları tətbiq edilir.

3) 1 və 2-ci bəndlərin müddəalarından asılı olmayaraq Razılığa gələn Dövlətin rezidentinin bu Konvensiyanın əvvəlki Maddələrində sadalanmayan və Razılığa gələn digər Dövlətdə əldə olunan gəlir növləri həmin digər Dövlətdə də vergiyə cəlb oluna bilər.

4) Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə yaşayış üçün tələb etmək hüququ əsasında əldə etdiyi gəlir Razılığa gələn digər Dövlətin qanunvericiliyinə uyğun olaraq vergidən azad olunduğu halda Razılığa gələn Dövlətdə vergiyə cəlb oluna bilməz.

Maddə 22
Əmlak

1) Bu Konvensiyanın 6-cı Maddəsində göstərilən, Razılığa gələn Dövlətin rezidentinə məxsus olub, Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakla təmsil olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2) Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdəki daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsi olan daşınar əmlakla yaxud Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə müstəqil şəxsi xidmətlər göstərmək üçün sərəncamında olan daimi bazanın daşınar əmlakı ilə təmsil olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

3) Beynəlxalq daşımalarda istismar olunan dəniz və hava gəmiləri və ya bu dəniz və hava gəmilərinin istismarı ilə bağlı olan daşınar əmlakla təmsil olunmuş əmlak yalnız dəniz və ya hava gəmisinə sahib olan müəssisənin rezident olduğu Dövlətdə vergiyə cəlb edilə bilər.

4) Razılığa gələn Dövlətin rezidentinin əmlakının bütün digər növlərinə yalnız həmin Dövlətdə vergi qoyulur.

Maddə 23
İkiqat vergiqoymanın aradan qaldırılması metodu

1) Avstriyaya münasibətdə ikiqat vergiqoymanın qarşısı aşağıdakı kimi alınır:

a) əgər Avstriya rezidenti bu Konvensiyanın müddəalarına əsasən Azərbaycan Respublikasında vergiyə cəlb olunmalı gəlir əldə edirsə yaxud əmlaka malikdirsə, Avstriya belə gəliri və ya əmlakı b) və c) yarımbəndlərinin müddəalarına uyğun olaraq vergidən azad edir;

b) əgər Avstriya rezidenti bu Konvensiyanın 10, 11, 12, 13-cü Maddələrinin 2-ci bəndlərinin və 21-ci Maddəsinin 3-cü bəndinin müddəalarına əsasən Azərbaycan Respublikasında vergiyə cəlb olunmalı gəlir növləri əldə edirsə, Avstriya həmin rezidentin Azərbaycanda ödədiyi vergi məbləğinə bərabər məbləği bu rezidentin gəlir vergisindən çıxmağa icazə verir. Lakin bütün hallarda çıxılan məbləğ Azərbaycanda vergiyə cəlb oluna biləcək gəlirə aid olan hesablamalara qədər hesablanmış vergi hissəsindən yüksək olmamalıdır;

c) Avstriya rezidentinin əldə etdiyi gəlir və ya sahib olduğu əmlak Konvensiyanın hər hansı bir müddəasına uyğun olaraq Avstriyada vergidən azad olduğu halda Avstriya buna baxmayaraq həmin rezidentin qalan gəliri və ya əmlakına vergi məbləğini hesablayarkən vergidən azad gəliri və ya əmlakı nəzərə ala bilər.

2) Azərbaycana münasibətdə ikiqat vergiqoymanın qarşısı aşağıdakı kimi alınır:

Əgər Azərbaycan Respublikasının rezidenti bu Konvensiyanın müddəalarına əsasən Avstriyada vergiyə cəlb olunmalı gəlir əldə edirsə yaxud əmlaka malikdirsə, bu gəlirə yaxud əmlaka görə Avstriyada ödədiyi verginin məbləği bu şəxsdən həmin gəlir və əmlakla əlaqədar olaraq Azərbaycan Respublikasında tutulan verginin məbləğindən çıxılmalıdır. Lakin çıxılan məbləğ Azərbaycan Respublikasının qanunvericiliyinə və vergiqoyma qaydalarına uyğun olaraq bu cür gəlirə yaxud əmlaka hesablanmış verginin məbləğindən çox olamamalıdır.

Maddə 24
Ayrı-seçkiliyə yol verilməməsi

1) Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətin milli şəxslərinin eyni şəraitdə cəlb olunduğu və ya cəlb oluna biləcəyi vergilərdən yaxud bununla bağlı olan öhdəliklərdən, o cümlədən, rezidentlik baxımından fərqlənən yaxud ağır olan şərtlərlə vergiqoymaya və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməyəcək. Bu Konvensiyanın 1-ci Maddəsinin müddəalarına baxmayaraq, bu şərt Razılığa gələn Dövlətlərdən birinin yaxud hər ikisinin rezidenti olmayan şəxslərə də şamil edilir.

2) Razılığa gələn Dövlətlərin rezidenti olan, vətəndaşlığı olmayan şəxslərə qarşı Razılığa gələn Dövlətlərdən heç birində həmin Dövlətlərin vətəndaşlarının eyni şəraitdə cəlb olunduğu yaxud cəlb oluna biləcəyi vergilərdən və onlarla bağlı olan öhdəliklərdən fərqlənən yaxud daha artıq şərtlərlə vergiqoyma və bununla əlqədar olan öhdəlik tətbiq edilməyəcək.

3) Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinə vergi qoyulması şərtləri, müəssisənin bu digər Dövlətdə eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb olunması şərtlərindən ağır olmamalıdır. Bu müddəa Razılığa gələn Dövlətin öz rezidentləri üçün mülki statusu və ailə öhdəlikləri əsasında vergiqoyma üzrə müəyyənləşdirdiyi hər hansı azadolmaları, imtiyazları və güzəştləri Razılığa gələn digər Dövlətin rezidentləri üçün tətbiq etmək məcburiyyəti kimi təfsir olunmamalıdır.

4) Bu Konvensiyanın 9-cu Maddəsinin 1-ci bəndinin, 11-ci Maddəsinin 7-ci bəndinin yaxud 12-ci Maddəsinin 6-cı bəndinin müddəalarından istifadə edildiyi hallar istisna olmaqla, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, royalti və digər ödənişlər bu müəssisənin vergiyə cəlb olunan mənfəəti

müəyyənləşdirilərkən, adı birinci çəkilən Dövlətin rezidentinə münasibətdə müəyyənləşdiriləcək çıxılmalar qədər azaldılmalıdır. Eyni zamanda, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu, həmin müəssisənin vergiyə cəlb olunan əmlakının müəyyənləşdirilərkən adı birinci qeyd olunmuş Dövlətin rezidenti ilə razılaşdırılmış kimi eyni şərtlər əsasında tutulur.

5) Razılığa gələn Dövlətin kapitalı bütövlükdə yaxud qismən Razılığa gələn digər Dövlətin rezidentinə yaxud rezidentlərinə mənsub və ya onların birbaşa və ya dolayı nəzarəti altında olan müəssisələr adı birinci çəkilən Dövlətin oxşar müəssisələrinin cəlb olunduğu yaxud cəlb oluna biləcəyi vergilərdən və ya onlarla bağlı öhdəliklərdən fərqlənən yaxud ağır olan şərtlərlə vergiyə cəlb edilə bilməz.

6) 2-ci Maddənin müddəalarına baxmayaraq bu Maddənin müddəaları bütün tip və növ vergilərə şamil edilir.

Maddə 25

Qarşılıqlı razılaşma proseduru

1) Əgər hər hansı şəxs rezident Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətlərini özünün bu Konvensiyasının müddəalarına uyğun olmayan tərzdə vergilərə cəlb edilməsi ilə nəticələnməsini yaxud nəticələnə biləcəyini güman edirsə, həmin Dövlətlərin milli qanunvericiliyində nəzərdə tutulmuş müdafiə üsullarından asılı olmayaraq, işini rezident olduğu Dövlətin yaxud bu iş 24-cü Maddənin 1-ci bəndinin tə'siri altına düşürsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqanlarına baxılmaq üçün verə bilər. Ərizə bu Konvensiyanın müddəalarına uyğun gəlməyən vergiqoymaya səbəb olmuş hərəkətlər haqqında ilk bildirişin göndərildiyi vaxtdan e'tibarən 3 il ərzində təqdim olunmalıdır.

2) Səlahiyyətli orqan ərizəni əsaslandırılmış hesab edib, özü qənaətbəxş qərara gələ bilmirsə, bu Konvensiyanın müddəalarına uyğun gəlməyən ikiqat vergiqoymanı aradan qaldırmaq məqsədilə, məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq əsasında həll etməyə çalışmalıdır. Əldə edilmiş hər hansı bir razılıq Razılığa gələn Dövlətin daxili qanunundakı hər hansı bir vaxt məhdudiyyətinə baxmayaraq həyata keçirilməlidir.

3) Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın təfsiri yaxud istifadəsi zamanı qarşıya çıxan bütün çətinlikləri yaxud anlaşılmazlıqları qarşılıqlı razılaşma əsasında həll etməyə sə'y göstərməlidirlər. Onlar bu Konvensiyada nəzərdə tutulmamış hallarda ikiqat vergiqoymanı aradan qaldırmaq üçün bir-biri ilə məsləhətləşə bilərlər.

4) Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları yuxarıdakı Maddələr üzrə razılıq və anlaşmaya nail olmaq üçün bir-biri ilə birbaşa əlaqələr yarada bilərlər.

5) Hər hansı bir xüsusi halda Konvensiyanın şərhi və ya tətbiqi ilə əlaqədar ortaya çıxan hər hansı bir mübahisə qarşılıqlı razılıq əsasında 1 - 4-cü bəndlərdə nəzərdə tutulan prosedurlara uyğun olaraq Razılığa gələn Dövlətin səlahiyyətli bir orqanı tərəfindən həll edilə bilmədiyi halda həmin mübahisə hər iki səlahiyyətli orqanın razılığı ilə beynəlxalq saviyyədə qəbul edilmiş prosedurlara uyğun olaraq dostyana yolla həll edilə bilər. Bu prosedurlar Razılığa gələn Dövlətin səlahiyyətli orqanları arasında müəyyənləşdirilir.

Maddə 26
İnformasiya mübadiləsi

1) Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın müddəalarının yerinə yetirilməsi üçün zəruri olan informasiya mübadiləsi aparırlar. Razılığa gələn Dövlətin aldığı hər hansı informasiya məxfi sayılır və yalnız bu Konvensiyanın tə'siri altına düşən vergilərin qiymətləndirilməsi yaxud toplanması, məcburi alınması yaxud məhkəmə qaydasında tə'qib olunması və ya appelyasiyalara baxılması ilə məşğul olan şəxslərə və ya hakimiyyət orqanlarına (o cümlədən, məhkəmələrə və inzibati orqanlara) bildirilir. Bu şəxslər yaxud orqanlar informasiyadan yalnız həmin məqsədlərlə istifadə edirlər. Onlar bu informasiyanı açıq məhkəmə iclaslarında yaxud hüquqi qərar qəbul edildiyi zaman açıqlaya bilərlər.

2) Heç bir halda bu Maddənin 1-ci bəndinin müddəaları Razılığa gələn Dövlətlərin üzərinə aşağıdakı öhdəlikləri qoymuş kimi təfsir edilməməlidir:

a) Razılığa gələn Dövlətin və ya Razılığa gələn digər Dövlətin qanunvericiliyinə və inzibati praktikasına zidd olan inzibati tədbirlər görmək;

b) Razılığa gələn Dövlətin və ya Razılığa gələn digər Dövlətin qanunvericiliyinə və adi inzibati praktikasına görə alınması mümkün olmayan informasiya vermək;

c) hər hansı ticarət, sahibkarlıq, sənaye, kommersiya yaxud peşə sirrini, ticarət prosesini açə biləcək informasiya və ya açılması dövlət siyasətinə (dövlət qaydalarına) zidd olan informasiya vermək.

Maddə 27
Diplomatik nümayəndəliklərin və konsul idarələrinin üzvləri

Bu Konvensiyanın heç bir müddəası diplomatik nümayəndəliklər və konsul idarələri üzvlərinin beynəlxalq hüququn ümumi normaları yaxud xüsusi razılaşmaların müddəaları əsasında müəyyənləşdirilmiş vergi imtiyazlarına şamil edilmir.

Maddə 28
Konvensiyanın qüvvəyə minməsi

1) Razılığa gələn Dövlətlərin hər biri digərinə bu Konvensiyanın qüvvəyə minməsi üçün özünün qanununun tələb etdiyi prosedurların yerinə yetirildiyi haqqda diplomatik kanallarla yazılı bildiriş təqdim edir.

2) Bu Maddənin 1-ci bəndində nəzərdə tutulan son bildiriş alındığı tarixdən otuz gün sonra Konvensiya qüvvəyə minir və aşağıdakılara şamil edilir:

a) mənbədə tutulan vergilər üzrə - bu Konvensiyanın qüvvəyə mindiyi tarixdən sonrakı ilin 1 yanvar tarixindən yaxud 1 yanvarından sonra ödənilən və ya kreditləşdirilən məbləğlərə; və

b) gəlirlərə və əmlaklara görə digər vergilər üzrə - Konvensiyanın qüvvəyə mindiyi tarixdən sonrakı ilin 1 yanvar tarixində yaxud 1 yanvarından sonrakı tarixdən başlanan hər bir vergi tutulan dövrlərdə ödənilən vergilərə.

Maddə 29
Konvensiyanın qüvvədən düşməsi

Bu Konvensiya Razılığa gələn Dövlətlərdən biri tərəfindən onun qüvvəsi ləğv edilənədək qüvvədə qalacaqdır. Razılığa gələn Dövlətlərdən hər biri istənilən təqvim ilinin sonuna ən azı 6 ay qalmış, diplomatik kanallarla yazılı bildiriş göndərməklə, Konvensiyanın qüvvəsini ləğv edə bilər. Bu halda Konvensiyanın qüvvəsi:

a) mənbəsində tutulan vergilər üzrə - qüvvəsinin ləğvi haqqında bildirişin göndərildiyi ildən sonrakı ilin 1 yanvar tarixində və ya 1 yanvar tarixindən sonra ödənilən məbləğlərə münasibətdə;

b) gəlirlərə və əmlaka görə digər vergilər üzrə - qüvvəsinin ləğvi haqqında bildirişin göndərildiyi ildən sonra gələn ilin 1 yanvar tarixində və ya 1 yanvar tarixindən sonra başlanan hər hansı vergiqoyma ilində tutulan digər vergilərə münasibətdə - ləğv edilir.

Bunun təsdiqi olaraq, hər iki Razılığa gələn Dövlətin lazımı qaydada səlahiyyət verilmiş nümayəndələri bu Konvensiyanı imzaladılar.

Vyana şəhərində 2000-ci ilin iyul ayının 4-də alman, Azərbaycan və ingilis dillərinin hər birində iki nüsxədə icra olunmuşdur, bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnlərin müddəaları arasında fikir ayrılığı meydana çıxdıqda, ingilis dilində olan mətndən istifadə olunacaq.

Avstriya Respublikası
Hökuməti adından

Azərbaycan Respublikası
Hökuməti adından

PROTOKOL

Konvensiya Avstriya Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında imzalanan zaman ikiqat vergiqoymaya yol verməmək və gəlirlər və əmlakla əlaqədar vergilərlə bağlı olaraq vergilərdən yayınmağın qarşısını almaq məqsədilə bu protokolun altından imza atanlar razılığa gəlmişlər ki, aşağıdakı müddəalar Konvensiyanın tərkib hissəsini təşkil edirlər:

Konvensiyanın təfsiri

Başa düşülür ki, gəlirlər və əmlak haqqında İƏİT Model Konvensiyasının və ya Birləşmiş Millətlər Təşkilatının İkiqat vergiqoymanın qarşısının alınması üzrə İnkişaf etmiş və İnkişaf etməkdə olan ölkələr arasında Model Konvensiyasının müvafiq müddəalarına uyğun olaraq tərtib edilmiş bu Konvensiyanın müddəaları da İƏİT Model Konvensiyası və ya Birləşmiş Millətlər Təşkilatının bu məsələ ilə əlaqədar təfsirlərində verilən eyni mə'naya malik olacaqdır. Konvensiya qüvvəyə mindikdən sonra, əvvəlki cümlədə verilən mə'na səlahiyyətli orqanlar tərəfindən razılaşdırılmış təfsirlərdən fərqli heç bir təfsirə şamil edilməyəcəkdir. Vaxtaşırı düzəlişlər edilə bilən təfsirlər şərhetmə vasitələrindən ibarətdir. İƏİT Model Konvensiyasında və ya Birləşmiş Millətlər Təşkilatının Model Konvensiyasında qeyd edildiyi kimi təfsir zamanı hər hansi bir ziddiyyət meydana çıxdığı və ehtiyac olduğu halda 25-ci Maddəyə uyğun olaraq qarşılıqlı razılıq əsasında ümumi bir təfsir axtarılacaqdır.

3-cü Maddənin 1-ci bəndinə əlavə

Azərbaycana münasibətdə öz statusunu Azərbaycan qanunvericiliyinə uyğun olaraq alan və vergiyə cəlb olunan obyekt hesab edilən tərəfdaşlıq və ya birgə müəssisə bu Konvensiyanın məqsədlərinə müvafiq olaraq hüquqi şəxs hesab edilir.

7-ci Maddəyə əlavə

Avstriyaya münasibətdə bu Maddədə istifadə olunan "mənfəət" terminində hər hansı bir tərəfdaşlıqda və ya vergi məqsədləri üçün eyni münasibət göstərilən şəxslərin hər hansı bir digər orqanında və Avstriya qanunvericiliyinə uyğun olaraq yaradılmış passiv tərəfdaşlıqda

(Stille Gesellschaft) iştirak etməsi nəticəsində hər hansı bir tərəfdaş tərəfindən əldə olunan mənfəət əhatə olunur.

11-ci Maddəyə əlavə

Avstriyaya münasibətdə 11-ci Maddənin 4-cü bəndinin a) yarımbəndi Avstriya Respublikasının adından fəaliyyət göstərən Österreichische Kontrollbank AG tərəfindən verilən zəmanət əsasında verilən və ya ödənilən borca da tətbiq edilir.

Bunun sübutu olaraq Razılığa gələn iki Dövlətin lazımi qaydada səlahiyyət verilmiş nümayəndələri bu Protokolu imzalamışlar.

Bu Protokol Vyana şəhərində 2000-ci ilin iyul ayının 4-də alman, Azərbaycan və ingilis dillərinin hər birində eyni hüquqi qüvvəyə malik iki orijinal nüsxədə imzalanmışdır. Mətnlərdə ziddiyyət meydana çıxdığı halda ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

Avstriya Respublikası
Hökuməti adından

Azərbaycan Respublikası
Hökuməti adından

CONVENTION

BETWEEN THE GOVERNMENT OF THE REPUBLIC OF AUSTRIA AND THE GOVERNMENT OF THE REPUBLIC OF AZERBAIJAN FOR THE AVOIDANCE OF DOUBLE TAXATION AND THE PREVENTION OF FISCAL EVASION WITH RESPECT TO TAXES ON INCOME AND ON CAPITAL

The Government of the Republic of Austria and the Government of the Republic of Azerbaijan, desiring to conclude a Convention for the avoidance of double taxation and the prevention of fiscal evasion with respect to taxes on income and on capital,

Have agreed as follows:

Article 1

Persons covered

This Convention shall apply to persons who are residents of one or both of the Contracting States.

Article 2

Taxes covered

1. This Convention shall apply to taxes on income and on capital imposed on behalf of a Contracting State or of its administrative territorial subdivisions or local authorities, irrespective of the manner in which they are levied.

2. There shall be regarded as taxes on income and on capital all taxes imposed on total income, on total capital, or on elements of income or of capital, including taxes on gains from the alienation of movable or immovable property, taxes on the total amounts of wages or salaries paid by enterprises, as well as taxes on capital appreciation.

3. The existing taxes to which the Convention shall apply are in particular:

(a) in Austria:
- (i) the income tax (die Einkommensteuer);
- (ii) the corporation tax (die Körperschaftsteuer);
- (iii) the land tax (die Grundsteuer);
- (iv) the tax on agricultural and forestry enterprises (die Abgabe von land- und forstwirtschaftlichen Betrieben) and
- (v) the tax on the value of vacant plots (die Abgabe vom Bodenwert bei unbebauten Grundstücken)

(hereinafter referred to as “Austrian taxes”);

(b) in Azerbaijan:
- (i) the tax on profit of legal persons;
- (ii) the income tax on physical persons;
- (iii) the tax on property and
- (iv) the land tax

(hereinafter referred to as “Azerbaijan taxes”).

4. The Convention shall apply also to any identical or substantially similar taxes which are imposed after the date of signature of the Convention in addition to, or in place of, the existing taxes. The competent authorities of the Contracting States shall notify each other of any substantial changes which have been made in their respective taxation laws.

Article 3

General definitions

1. For the purposes of this Convention, unless the context otherwise requires:

(a) the term “Azerbaijan” means the territory of the Republic of Azerbaijan, the Caspian Sea(Lake) sector belonging to the Republic of Azerbaijan, the air space above the Republic of Azerbaijan, within which the sovereign rights and jurisdiction of the Republic of Azerbaijan is implemented in respect to subsoil, sea bed and natural resources and any other area which has been or may hereinafter be determined in accordance with international law and legislation of the Republic of Azerbaidjan.

(b) the term “Austria” means the territory of the Republic of Austria;

(c) the term “person” includes an individual, a company and any other body of persons;

(d) the term “national” means:

(i) any individual possessing the nationality of a Contracting State;
(ii) any legal person, partnership or association deriving its status as such from the laws in force in a Contracting State;

(e) the terms “a Contracting State” and “the other Contracting State” mean Austria or Azerbaijan, as the context requires;

(f) the terms “enterprise of a Contracting State” and “enterprise of the other Contracting State” mean respectively an enterprise carried on by a resident of a Contracting State and an enterprise carried on by a resident of the other Contracting State;

(g) the term “company” means any body corporate or any entity which is treated as a body corporate for tax purposes;

(h) the term “international traffic” means any transport by a ship or aircraft operated by an enterprise of a Contracting State, except when the ship or aircraft is operated solely between places in the other Contracting State;

(i) the term “competent authority” means:
(i) in Austria: the Federal Minister of Finance or his authorised representative;
(ii) in Azerbaijan: the Ministry of Finance and the Ministry of Taxes.

2. As regards the application of the Convention at any time by a Contracting State, any term not defined therein shall, unless the context otherwise requires, have the meaning that it has at that time under the law of that State for the purposes of the taxes to which the Convention applies, any meaning under the applicable tax laws of that State prevailing over a meaning given to the term under other laws of that State.

Article 4

Resident

1. For the purposes of this Convention, the term “resident of a Contracting State” means any person who, under the laws of that State, is liable to tax therein by reason of his domicile, residence, place of registration, place of incorporation, place of management or any other criterion of a similar nature, and also includes that State and any administrative territorial subdivision or local authority thereof. This term, however, does not include any person who is liable to tax in that State in respect only of income from sources in that State or capital situated therein.

2. Where by reason of the provisions of paragraph 1 of this Article an individual is a resident of both Contracting States, then his status shall be determined as follows:

(a) he shall be deemed to be a resident only of the State in which he has a permanent home available to him; if he has a permanent home available to him in both States, he shall be deemed to be a resident only of the State with which his personal and economic relations are closer (centre of vital interests);

(b) if the State in which he has his centre of vital interests cannot be determined, or if he has not a permanent home available to him in either State, he shall be deemed to be a resident only of the State in which he has an habitual abode;

(c) if he has an habitual abode in both States or in neither of them, he shall be deemed to be a resident only of the State of which he is a national;

(d) if he is a national of both States or of neither of them, the competent authorities of the Contracting States shall endeavour to settle the question by mutual agreement.

3. Where by reason of the provisions of paragraph 1 aperson other than an individual is a resident of both Contracting States, then it shall be deemed to be a resident only of the State where it is registered and in which its place of effective management is situated. If the place of registration and the place of effective management are not located in the same Contracting State the competent authorities of the Contracting States shall endeavour to settle the question by mutual agreement.

Article 5

Permanent establishment

1. For the purposes of this Convention, the term “permanent establishment” means a fixed place of business through which the business of an enterprise is wholly or partly carried on.

2. The term “permanent establishment” includes especially:

(a) a place of management;

(b) a branch;

(c) an office;

(d) a factory;
(e) a workshop;
(f) an installation, structure or vessel or any other place used for the exploration of natural resources;
(g) a mine, an oil or gas well, a quarry, installation or structure or any other place of extraction and development of natural resources, and
(h) a building site or construction or installation project, but only if it lasts more than twelve months.

3. The furnishing of services, including consultancy services, in a Contracting State by an enterprise through its employees or other personnel engaged by the enterprise for such purpose, constitutes a permanent establishment, but only where the activities of that nature continue (for the same or a connected project) within that State for more than six months.

4. Notwithstanding the preceding provisions of this Article, the term "permanent establishment" shall be deemed not to include:
(a) the use of facilities solely for the purpose of storage, display or delivery of goods or merchandise belonging to the enterprise;
(b) the maintenance of a stock of goods or merchandise belonging to the enterprise solely for the purpose of storage, display or delivery;
(c) the maintenance of a stock of goods or merchandise belonging to the enterprise solely for the purpose of processing by another enterprise;
(d) the maintenance of a fixed place of business solely for the purpose of purchasing goods or merchandise or of collecting information, for the enterprise;
(e) the maintenance of a fixed place of business solely for the purpose of carrying on, for the enterprise, any other activity of a preparatory or auxiliary character;
(f) the maintenance of a fixed place of business solely for any combination of activities mentioned in sub-paragraphs (a) to (e), provided that the overall activity of the fixed place of business resulting from this combination is of a preparatory or auxiliary character.

5. Notwithstanding the provisions of paragraphs 1 and 2, where a person – other than an agent of an independent status to whom paragraph 6 applies – is acting on behalf of an enterprise and has, and habitually exercises, in a Contracting State an authority to conclude contracts in the name of the enterprise, that enterprise shall be deemed to have a permanent establishment in that State in respect of any activities which that person undertakes for the enterprise, unless the activities of such person are limited to those mentioned in paragraph 4 which, if exercised through a fixed place of business, would not make this fixed place of business a permanent establishment under the provisions of that paragraph.

6. An enterprise shall not be deemed to have a permanent establishment in a Contracting State merely because it carries on business in that State through a broker, general commission agent or any other agent of an independent status, provided that such persons are acting in the ordinary course of their business. However, if the activities of the agent are carried out wholly or almost wholly for the enterprise he shall not be considered to be an agent of an independent status for the purposes of this paragraph, unless it is shown that the transactions between the agent and the enterprise were made under the conditions which would be made between independent parties (arm's length conditions).

7. The fact that a company which is a resident of a Contracting State controls or is controlled by a company which is a resident of the other Contracting State, or which carries on business in that other State (whether through a permanent establishment or otherwise), shall not of itself constitute either company a permanent establishment of the other.

Article 6

Income from immovable property

1. Income derived by a resident of a Contracting State from immovable property (including income from agriculture or forestry) situated in the other Contracting State may be taxed in that other State.

2. The term "immovable property" shall have the meaning which it has under the law of the Contracting State in which the property in question is situated. The term shall in any case include property accessory to immovable property, livestock and equipment used in agriculture and forestry, rights to which the provisions of general law respecting landed property apply, usufruct of immovable property and rights to variable or fixed payments as consideration for the working of, or the right to work, mineral deposits, sources and other natural resources; ships, boats and aircraft shall not be regarded as immovable property.

3. The provisions of paragraph 1 shall apply to income derived from the direct use, letting, or use in any other form of immovable property.

4. The provisions of paragraphs 1 and 3 shall also apply to the income from immovable property of an enterprise and to income from immovable property used for the performance of independent personal services.

Article 7

Business profits

1. The profits of an enterprise of a Contracting State shall be taxable only in that State unless the enterprise carries on business in the other Contracting State through a permanent establishment situated therein. If the enterprise carries on business as aforesaid, the profits of the enterprise may be taxed in the other State but only so much of them as is attributable to that permanent establishment.

2. Subject to the provisions of paragraph 3, where an enterprise of a Contracting State carries on business in the other Contracting State through a permanent establishment situated therein, there shall in each Contracting State be attributed to that permanent establishment the profits which it might be expected to make if it were a distinct and separate enterprise engaged in the same or similar activities under the same or similar conditions and dealing wholly independently with the enterprise of which it is a permanent establishment.

3. In determining the profits of a permanent establishment, there shall be allowed as deductions expenses which are incurred for the purposes of the permanent establishment, including executive and general administrative expenses so incurred, whether in the State in which the permanent establishment is situated or elsewhere.

4. Insofar as it has been customary in a Contracting State to determine the profits to be attributed to a permanent establishment on the basis of an apportionment of the total profits of the enterprise to its various parts, nothing in paragraph 2 shall preclude that Contracting State from determining the profits to be taxed by such an apportionment as may be customary; the method of apportionment adopted shall, however, be such that the result shall be in accordance with the principles contained in this Article.

5. No profits shall be attributed to a permanent establishment by reason of the mere purchase by that permanent establishment of goods or merchandise for the enterprise.

6. For the purposes of the preceding paragraphs, the profits to be attributed to the permanent establishment shall be determined by the same method year by year unless there is good and sufficient reason to the contrary.

7. Where profits include items of income which are dealt with separately in other Articles of this Convention, then the provisions of those Articles shall not be affected by the provisions of this Article.

Article 8

Shipping and air transport

1. Profits of an enterprise of a Contracting State from the operation of ships or aircraft in international traffic shall be taxable only in that State.

2. For the purposes of this Article, profits from the operation of ships or aircraft in international traffic include:

(a) profits from the rental on a bareboat basis of ships or aircraft in international traffic; and

(b) profits from the use, maintenance or rental of containers in international traffic (including trailers and related equipment for the transport of containers) used for the transport of goods or merchandise,

where such use, maintenance or rental, as the case may be, is incidental to the operation of ships or aircraft in international traffic.

3. The provisions of paragraphs 1 and 2 shall also apply to profits from the participation in a pool, a joint business or an international operating agency.

Article 9

Associated enterprises

1. Where

